# İnsan hüquqları sahəsində islahatlar uğurla davam etdirilir

**Azərbaycan Respublikası XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq münasibətlər sisteminin tam və bərabərhüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir.**

Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən işlənilib hazırlanan və 12 noyabr 1995-ci il tarixində keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə yekdilliklə qəbul edilmiş müstəqil dövlətimizin ilk Konstitusiyası isə Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuş, hüquqi islahatların həyata keçirilməsinə hərtərəfli zəmin yaratmışdır. Bundan əlavə ölkəmizin Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını yüksək qiymətləndirərək, onlara hörməti, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi kimi müəyyən etmişdir.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini ali məqsəd kimi qarşıya qoymuş müstəqil dövlətimiz xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır. Belə ki, əhalinin sosial rifahının yüksəlməsinə istiqamətlənmiş əlverişli hüquqi və sosial-iqtisadi siyasət insan hüquqlarının səmərəli təmin edilməsində və etibarlı müdafiəsində, habelə davamlı inkişafda mühüm əhəmiyyət daşıyır.

1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv olunması dünyada böyük əks-səda doğurdu və bu humanist addım respublikamızın Avropa hüquq məkanına inteqrasiyasına təkan verdi.

Prezident Heydər Əliyev tərəfindən 1998-ci ilin 18 iyun tarixində təsdiq edilmiş və ölkəmizdə insan hüquqları sahəsində ilk strateji sənəd olan "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda ilk dəfə "İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması" təsbit olunmuşdur.

Azərbaycanın bu gün dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınması, ölkəmizdə insan hüquqları üzrə ilk sənədlərin, müstəqil hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Milli səviyyədə insan hüquqlarının müdafiəsi və təşviqi məqsədilə məhkəmədənkənar müstəqil hüquq müdafiə mexanizmi və milli insan hüquqları institutu kimi səmərəli fəaliyyət göstərən Ombudsman təsisatının hüquqi statusu və müstəqilliyinin təminatları "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" 2001-ci il 28 dekabr tarixli Konstitusiya Qanununda öz əksini tapmışdır.

Azərbaycan Ombudsmanı Konstitusiya Qanununa uyğun olaraq, ölkə yurisdiksiyasında olan hər bir kəsin pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi, habelə insan hüquqları pozuntularının qarşısının alınması, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarının, habelə "İnformasiya əldə etmək haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarətin həyata keçirilməsi istiqamətində tədbirlər görür.

Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş mühüm əhəmiyyətli strateji sənədlərin əsas qayəsini təşkil edən hamı üçün bərabər hüquqların təmin olunması, heç bir halda ayrı-seçkiliyə yol verilməməsi, əhalinin bütün qruplarının hüquq və azadlıqlarına hörmət edilməsi və onların təmin olunması məsələsi Ombudsmanın fəaliyyətində əsas meyar kimi rəhbər tutulur.

Ombudsman təsisatı fəaliyyəti dövründə öz müsbət iş təcrübəsi, innovativ təşəbbüsləri və səmərəli təklifləri ilə fərqlənmişdir. Əhalinin müxtəlif sosial qruplarının hüquqlarının daha etibarlı təmin edilməsi məqsədi ilə Müvəkkilin qadınların, uşaqların, ahılların, əlilliyi olan şəxslərin, qaçqınların, məcburi köçkünlərin və miqrantların, həbs edilmiş şəxslərin və məhkumların, hərbi qulluqçuların hüquqlarının müdafiəsi, habelə insan alveri və korrupsiya ilə mübarizə, biznes və insan hüquqları, eləcə də digər sahələr üzrə ixtisaslaşmış müşavirləri fəaliyyət göstərir.

Müvəkkil polis bölmələri, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, qarnizon hauptvaxtları ilə yanaşı, psixiatriya və sosial xidmət müəssisələrində, habelə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdəki şəxslərin hüquq və azadlıqlarının qorunmasına, qanuni mənafelərinin təmin olunmasına xüsusi önəm vermiş, mütəmadi olaraq həmin müəssisələrin monitorinqi aparılmış, saxlanılan şəxslərlə görüş keçirilərək onların saxlanılma şəraiti, habelə şikayətləri yerində öyrənilmiş, müraciətlər üzrə müvafiq araşdırmalar aparılaraq, bu və ya digər məsələnin həlli ilə bağlı aidiyyəti dövlət qurumlarına tövsiyələr verilmiş, bir çox problemlər öz müsbət həllini tapmışdır.

Müvəkkilin həyata keçirdiyi fəaliyyət çərçivəsində istər Bakı şəhərində, istərsə də regionlarda daim insan hüquqlarının təmin edilməsinin monitorinqi aparılmış, vətəndaşların üzləşdikləri problem və çətinliklər, onların yaranma səbəbləri araşdırılmış, həlli istiqamətində zəruri tədbirlər görülmüş, müvafiq təkliflər irəli sürülmüş və bir çox hallarda birgə səylər nəticəsində pozulmuş hüquqların bərpasına nail olunmuşdur.

Yeni prioritetlərə, çağırışlara cavab olaraq ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev tərəfindən Müvəkkilin təklifləri də nəzərə alınmaqla 2006-cı ildə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı", 2011-ci ildə isə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq olunmuş və həmin sənədlərin icrasının həyata keçirilməsinin əlaqələndirilməsi üzrə İşçi qrupun fəaliyyətinə rəhbərlik Ombudsmana tövsiyə edilmişdir. Bu strateji sənədlər insan hüquqlarının sürətlə, sistematik və ardıcıl tərzdə inkişafı üçün ölkəmizin yol xəritəsi olmuşdur.

Azərbaycan dövlətinin insan hüquqlarına verdiyi ali dəyərin bariz təzahürüdür ki, ölkə Prezidenti İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən, insan hüquqlarına dair ilk strateji sənədin qəbul edildiyi 18 iyun tarixi yeganə ölkə olaraq müstəqil respublikamızda Milli İnsan Hüquqları Günü kimi qeyd olunur. Bu əlamətdar gün ilə bağlı təşəbbüsümüzlə hər il 18 may - 18 iyun tarixlərində ölkəmizdə ənənəvi olaraq "İnsan hüquqları aylığı" keçirilir.

Bununla əlaqədar hər il mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, eyni zamanda vətəndaş cəmiyyəti institutlarına, o cümlədən də QHT və KİV-lərə, icmalara, ümumilikdə isə hər bir aidiyyəti quruma həmin ərəfədə tədbirlərin həyata keçirilməsi, insan hüquqlarına diqqətin daha da artırılması, bu hüquqların təmini və təbliği məqsədini daşıyan müraciətlər edilir, "İnsan hüquqları aylığı" ilə bağlı əhalini məlumatlandırmaq üçün iki ədəd baner hazırlanaraq paytaxtın mərkəzi küçələrində asılmışdır.

Təqdirəlayiq haldır ki, ölkəmizdə həm milli, həm də beynəlxalq İnsan hüquqları gününün qeyd olunması bu əlamətdar tarixlər ərəfəsində insan hüquqlarının təmininin monitorinqi, vəziyyətin öyrənilməsi və ehtiyacların müəyyən edilməsi üçün imkan yaradır.

2019-cu ilin əvvəlində ölkə Prezidentinin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilmiş, inqilabi sosial islahatların əsası qoyulan müşavirədə verdiyi tapşırıqlar əhalinin bütün qruplarını əhatə etməklə dövlətin ali məqsədi olan layiqli həyat səviyyəsinin təminatına çevrilməkdədir.

Dövlət başçısının qəbul etdiyi bu qərarlar həm şamil olunan əhali sayı, həm də nəzərdə tutulmuş büdcə vəsaitlərinin həcminə görə xüsusilə fərqlənir. Bu sosial paketin tətbiqi təxminən 3 milyona yaxın insanın dövlət büdcəsindən 2 milyarddan artıq vəsait ayrılmaqla, sosial problemlərinin həllinə yönəlmişdir.

Bununla yanaşı, regionların inkişafına dair üçüncü dövlət proqramının uğurla yerinə yetirilməsinin, vergi qanunvericiliyinin təkmilləşdirilməsinin, minimum aylıq əməkhaqqı məbləğinin yaşayış minimumuna çatdırılmasının da insan hüquqlarının səmərəli təmin olunmasında mühüm əhəmiyyəti olmuşdur.

Uzun illər ərzində vətəndaşları narahat edən problemlərdən biri kimi vaxtilə tikilmiş və hansısa səbəblərə görə rəsmi olaraq qəbul edilməmiş çoxmənzilli binaların sənədləşməsi məsələsinin həlli istiqamətində imzalanan Fərman da çoxlarını sevindirdi.

Ötən dövr ərzində formalaşmış zəngin təcrübəyə əsasən inamla deyə bilərik ki, milli səviyyədə insan hüquqlarının təşviqi və müdafiəsi məqsədilə yaradılaraq məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan, hakimiyyətin heç bir qoluna aid olmayan və müstəqil milli insan hüquqları institutu kimi uğurla fəaliyyət göstərən Ombudsman təsisatı bundan sonra da ölkəmizdə hər bir kəsin hüquqlarının səmərəli müdafiəsinə xidmət etməklə, Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun yeni nailiyyətlərin əldə olunmasına öz töhfəsini verəcəkdir.

Çoxsaylı regional və beynəlxalq konvensiya və proqramlara qoşulan Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması üçün zəruri normativ hüquqi baza formalaşdırılıb və bu istiqamətdə çox mühüm tədbirlər həyata keçirilir, beynəlxalq əməkdaşlıq da daim diqqət mərkəzində saxlanılır.

Ölkəmizdə hazırlanan inkişaf konsepsiya və strategiyaları, proqram və layihələr bir qayda olaraq, BMT-nin Davamlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılır. Bu isə onu göstərir ki, Azərbaycan dövləti öz siyasətini qlobal çağırışlar və təmayüllər nəzərə alınmaqla qurur.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları - nazirliklər, komitələr və digər qurumlar tərəfindən Milli İnsan Hüquqları Günü ərəfəsində ölkəmizdə elan olunmuş "İnsan hüquqları aylığı" ilə bağlı görülmüş işlər barədə məlumatlar isə aylığın yekununda həmin qurumlar tərəfindən bir qayda olaraq Ombudsmana təqdim edilmişdir.

"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin də həyata keçirilməsi ilə bağlı Aylıq çərçivəsində bir sıra işlər görülmüşdür.

Bu Proqramın müddəalarına uyğun olaraq, Ombudsmanın təşəbbüsü əsasında Təhsil Nazirliyi ilə əməkdaşlıqda orta ümumtəhsil məktəblərində insan hüquqları təhsili bazasında həyata keçirilən Uşaq hüquqları üzrə pilləli tədris proqramı tətbiq olunmuş və uğurla davam etdirilir.

Uşaqların iştirakı ilə gerçəkləşdirilən, müvafiq modullar əsasında tətbiq olunan tədris proqramı uşaq hüquqlarının öyrənilməsinə öz töhfəsini verməklə yanaşı, şagirdlərin bilik və natiqlik bacarıqlarının inkişaf etdirilməsi, onların ictimai fəallığının artırılması, eləcə də müvafiq fənn müəllimlərinin insan hüquqları sahəsində ixtisaslaşmasında mühüm rol oynayır. İnteraktiv şəkildə aparılan pilləli tədris prosesində əsas diqqət şagirdlərin uşaq hüquqları sahəsində bilik səviyyəsinin inkişaf etdirilməsinə yönəldilmişdir.

2018-2019-cu tədris ilində Bakı şəhərinin hər bir rayonu və Ağstafa, Qazax, Cəlilabad, Biləsuvar, Şəki, Qəbələ, Xızı və Siyəzən rayonları üzrə hər birində bir məktəb olmaqla, ümumilikdə 20 məktəbdə həyata keçirilən Uşaq hüquqları üzrə pilləli tədris proqramına yekun vurulmuşdur.

Qeyd olunmalıdır ki, həmin tədris proqramı ilk dəfə olaraq Pirallahı rayonu Çilov adasında 131 saylı məktəbdə də həyata keçirilmişdir.

İnsan Hüquqları Aylığı çərçivəsində həmin məktəblərdə tədbirlər təşkil olunmuş və bu Proqramı uğurla başa vuran və trenerlik bacarıqlarına yiyələnmiş 1285 şagird sertifikatla, 80-dən çox direktor və müəllim təşəkkürnamə ilə təltif edilmişlər.

Ümumilikdə 2009-2010-cu tədris ilindən etibarən davamlı olaraq hər il keçirilən Uşaq hüquqları üzrə pilləli tədris proqramına Bakı şəhərinin bütün rayonlarının, ölkənin digər 32 şəhər və rayonunun 190-dan çox məktəbi cəlb edilmiş, bu prosesdə fərqlənmiş 11.500-dən artıq şagird Ombudsman tərəfindən sertifikatla təltif edilmiş, 900-dən çox direktor və müəllim təşəkkürnamə almışdır.

Təşəbbüsümüzlə Bakı Dövlət Universitetində yaradılmış "İnsan hüquqları və informasiya hüququ" YUNESKO kafedrasında bakalavriat və magistratura təhsil səviyyələrində insan hüquqları üzrə yüksək ixtisaslı kadr hazırlığının, habelə "İnsan hüquqları", "Genderə giriş" fənlərinin müstəqil bir fənn kimi universitet səviyyəsində tədrisi bu il də uğurla davam etdirilmişdir.

Müvəkkil tərəfindən insan hüquqları sahəsində kadrların hazırlanması işinə də geniş yer verilir. Bu baxımdan aparatda yaradılmış "İnsan hüquqları sahəsində xüsusi qısamüddətli təhsil şəbəkəsi" də fəaliyyətini davam etdirməkdədir. Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, "ADA" Universitetinin, Bakı Slavyan Universitetinin, Azərbaycan Dillər Universitetinin və digər ali təhsil müəssisələrinin tələbə və magistrantları ardıcıl olaraq Müvəkkilin Aparatında istehsalat və elmi-tədqiqat təcrübəsi keçiblər. ümumilikdə 399, o cümlədən 2019-cu ildə 27 tələbə və magistrant istehsalat və elmi-tədqiqat təcrübəsi keçərək xasiyyətnamələr almışlar.

Eyni zamanda Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi - Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin Liderlik Məktəbi, qadın hüquqları üzrə resurs mərkəzi - BMT-nin İqtisadi və Sosial Şurası ilə Məsləhətçi Statuslu ölkəmizdə yeganə qadın qeyri-hökumət təşkilatı olan Azərbaycan Qadın və İnkişaf Mərkəzi, Ahılların hüquqları üzrə resurs mərkəzi fəaliyyət göstərir. Hər bir resurs mərkəzi müntəzəm şəkildə fəaliyyət göstərərək müxtəlif tədbirlər həyata keçirir.

"İnsan hüquqları aylığı" çərçivəsində Müvəkkilin, Aparatın əməkdaşlarının, Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən və ətraf rayonları əhatə edən Ombudsmanın regional mərkəzlərinin nümayəndələrinin iştirakı ilə silsilə tədbirlər Bakı şəhərində və respublikanın rayonlarında davam etdirilmiş, Müvəkkilin nümayəndələri yerlərdə təşkil olunmuş tədbirlərdə insan hüquqlarına dair müxtəlif mövzularda məruzə və çıxışlar etmişlər.

Bakı şəhəri və regionlarda çoxsaylı tədris müəssisələrində aylıq çərçivəsində təsisatın nümayəndələrinin iştirakı ilə silsilə maarifləndirmə tədbirləri təşkil olunmuşdur.

Həmçinin Sabunçu Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə bu rayondakı məktəblərin bir qrup şagirdlərinin Müvəkkillə görüşü keçirilmiş, onlar Ombudsman Aparatının strukturu, müraciətlərin qəbulu və araşdırılması prosesi ilə tanış olmuşlar.

Bundan başqa, aylıq çərçivəsində F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları üçün Ombudsmanın nümayəndələri tərəfindən maarifləndirici xarakterli dəyirmi masa təşkil olunmuşdur.

Hər zaman olduğu kimi, Ombudsman və Aparatın əməkdaşları tərəfindən İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm (MPM) funksiyalarının icrası məqsədilə müvəqqəti saxlanma təcridxanalarında, istintaq təcridxanalarında, cəzaçəkmə müəssisələrində, psixiatriya müəssisələrində, qanunsuz miqrantların saxlanılması mərkəzlərində və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdə başçəkmələr həyata keçirilmiş, saxlanılan şəxslərlə görüşlər təşkil olunmuş, onlara ünvanlanan hüquqi maarifləndirmə işləri də aparılmışdır.

Hər ayın sonunda əfvlə bağlı müraciətlər ölkə Prezidenti yanında Əfv Məsələləri Komissiyasına təqdim olunur. Yeri gəlmişkən, ölkə Prezidentinin 16 mart 2019-cu il tarixdə imzaladığı, sayca 65-ci olan Əfv sərəncamı ilə təkliflərimizə əsasən 54 məhkum əfv olunmuşdur. ümumilikdə isə fəaliyyətimiz dövründə vəsatətlərimiz üzrə ümumilikdə 700-dək məhkum, o cümlədən yeniyetmələr, qadınlar, ahıllar və digər məhkumlar əfv edilərək azadlığa buraxılmışdır.

Aidiyyəti dövlət qurumları, o cümlədən hüquq mühafizə orqanları, nazirliklər, komitələr tərəfindən aylıq çərçivəsində həyata keçirilən tədbirlər demək olar ki, əhalinin bütün qruplarını əhatə etmiş və onların fəal iştirakları ilə keçirilmişdir. Ümumtəhsil məktəblərində, orta ixtisas və ali təhsil ocaqlarında, uşaq evləri və internat müəssisələrində, icmalarda, müxtəlif dövlət qurumlarının, hüquq mühafizə orqanlarının Akademiyalarında, hərbi hissələrdə, cəzaçəkmə müəssisələrində insan hüquqlarına dair seminarlar, treninqlər və digər maarifləndirmə tədbirləri təşkil olunmuş, dövlət qurumlarının mətbu orqanları olan qəzet və jurnallarında insan hüquqlarını təbliğ edən məqalələr və yazılar dərc edilmişdir.

Azərbaycan Respublikasının prokurorluq orqanlarına ilk dəfə qulluğa qəbul edilən namizədlərin peşə fəaliyyətinə buraxılması məqsədilə icbari təlimlərin təşkili zamanı insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı, beynəlxalq konvensiyalarla əlaqədar mövzulara xeyli yer ayrılmış, eyni zamanda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda beynəlxalq seminar keçirilmişdir.

Ədliyyə Nazirliyi tərəfindən cəzaçəkmə müəssisələrində məhkumlarla informasiya məşğələlərində onların hüquq və vəzifələri, xalqımızın milli-mənəvi dəyərlərinin, sülh və dözümlülük, mədəniyyətinin, dövlətin cəza-icra siyasətinin həyata keçirilməsində əfv və amnistiya institutunun, insan hüquqlarının təmin edilməsində Ombudsman təsisatının mahiyyəti, eləcə də əhalinin hüquq təfəkkürünün inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi mövzularında maarifləndirici tədbirlər təşkil edilmişdir.

Daxili İşlər Nazirliyi tərəfindən əhalinin müxtəlif qrupları arasında maarifləndirmə və izahat işləri aparılmış, KİV-də, o cümlədən DİN-in mətbu orqanları olan "Mübariz keşikdə", "Polis" qəzetlərində insan hüquqları sahəsində görülən tədbirlər haqqında məqalələr dərc olunmuş, habelə ölkədə Yuvenal Ədliyyə sistemi islahatlarına uyğun olaraq, ötən dövrdə hüquqpozma törədən və buna məruz qalan 15 yeniyetmə ilə sosial bərpa və reabilitasiya tədbirləri həyata keçirilmiş, onlara zəruri köməkliklər göstərilmişdir.

Səhiyyə Nazirliyi tərəfindən paytaxtdakı orta ümumtəhsil məktəblərində və ali təhsil müəssisələrində sağlamlıq hüququ mövzusunda maarifləndirmə tədbirləri keçirilmiş, eyni zamanda sağlam həyat tərzinə həsr olunmuş müsabiqələr təşkil edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Pensiya yaşına çatmış şəxslər üçün Sosial Xidmət Müəssisəsində ahıl vətəndaşların iştirakı ilə tədbir təşkil olunmuş, eyni zamanda Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən Binəqədi və Abşeron rayonlarında fəaliyyət göstərən işəgötürənlərin nümayəndələrinin, ayrı-ayrı müəssisələrdə çalışan işçilərin iştirakı ilə maarifləndirmə tədbiri keçirilmişdir.

Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "İnsan hüquqlarının müdafiəsi dövlətin ali məqsədidir" adlı seminar keçirilmiş və Nazirliyin mətbu orqanı olan "Azərbaycan Ordusu" qəzetində bu mövzuda yazılar dərc edilmişdir. Yeri gəlmişkən, Müvəkkilin Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının Komandanlığı və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanlığı ilə razılaşdırılmış plan-cədvəllərə müvafiq olaraq, Ombudsman Aparatının əməkdaşlarının həmin qurumların səlahiyyətli nümayəndələri ilə birlikdə hərbi hissələrə başçəkmələri müntəzəm qaydada davam etdirmışlər.

Mədəniyyət Nazirliyi sisteminə daxil olan Bakı Xoreoqrafiya Akademiyası, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, Mədəniyyət üzrə Elimi-Metodiki və İxtisasartırma Mərkəzi, Milli Kitabxana, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, hebelə Regional mədəniyyət idarələri tərəfindən insan hüquqlarının müdafiəsi və təbliği mövzularına dair müxtəlif maarifləndirici xarakterli tədbirlər keçirilmişdir.

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Xaçmaz, Şabran, Şamaxı, Ağsu, Qəbələ, Oğuz, Ağdaş, Bərdə, Cəlilabad və Neftçala rayonlarında "18 iyun Milli insan hüquqları günü"nə və "İnsan hüquqları aylığı"na həsr edilmiş "Dayanıqlı İnkişaf Məqsədləri və insan hüquqları" mövzusunda təlimlər keçirilmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin müxtəlif regionlarında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində, eləcə də idarə və təşkilatlarda sağlam ətraf mühitdə yaşamaq hüququ və ətraf mühitin qorunması vəzifələri üzrə maarifləndirmə xarakterli seminar, məşğələlər, dəyirmi masalar, görüşlər keçirilmiş, KİV-də bununla əlaqəli müvafiq məlumatlar dərc edilmişdir.

Fövqəladə Hallar Nazirliyi tərəfindən keçirilən tədbirlərdə ölkəmizdə insan hüquqları sahəsində aparılan islahatlar, fövqəladə halların qarşısının alınması və nəticələrin aradan qaldırılması zamanı insanların müdafiəsinin təmin olunmasında nazirliyin fəaliyyəti və rolu mövzusunda müzakirələr aparılmış, təbii və texnogen xarakterli fövqəladə hallar zamanı insan hüquqlarının qorunmasının vacibliyi vurğulanmışdır.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən "Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir" mövzusunda konfrans, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Kiçik və orta biznesin inkişafında ictimai şuraların rolu" adlı forum aidiyyəti dövlət orqanlarının, ictimai təşkilatların, ictimaiyyət və KİV nümayəndələrinin iştirakı ilə təşkil edilmişdir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Kibertəhlükəsizlik üzrə Gənclər Seminarı" keçirilmiş, gənclərə gündəlik istifadə etdikləri qurğuların kibertəhlükələrdən mühafizəsi, onlara proqramların quraşdırılması, loqin və parolların kiber-müdafiəsi, məlumatı avtomatik təsnifləmək, şifrələmək, təhlükəsiz paylaşma üsulları, informasiya sistemlərinə edilən müdaxilələrin qarşısının alınması haqqında məlumatlar verilmiş, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Heydər Əliyev Fondu, "Azərbaycan Dəmir Yolları" QSC, YUNİSEF və Gəncə Şəhər İcra Hakimiyyəti ilə birgə "Sürətlə və inamla gələcəyə" əyləncə təbliğat qatarı tədbiri, "İçərişəhər" Dövlət tarix-memarlıq qoruğu İdarəsi ilə birgə "Gözəl bir gün" adlı tədbir keçirilmiş, həmçinin regionlarda fəaliyyət göstərən uşaq və ailələrə dəstək mərkəzləri tərəfindən də müxtəlif mövzularda maarifləndirici tədbirlər təşkil edilmişdir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mərkəzi aparatının müvafiq şöbələri, departamentləri və yerli bölmələri tərəfindən əraziləri işğal olunmuş rayon icra hakimiyyəti orqanları ilə birlikdə məcburi köçkün icmaları ilə görüşlər keçirilmişdir.

Dövlət Statistika Komitəsinin aparatının və Komitənin tabeliyində fəaliyyət göstərən Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin əməkdaşlarının iştirakı ilə "İnsan hüquqlarının təminatı" mövzusunda tədbir keçirilmişdir.

Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan gömrük orqanlarında və qurumlarda xarici iqtisadi fəaliyyət iştirakçıları ilə görüşlər keçirilmiş, bu görüşlərdə insan və vətəndaşların hüquqlarının və azadlıqlarının qorunmasının vacibliyi vurğulanmış, tədbir iştirakçılarının müraciətləri dinlənilmiş, onları maraqlandıran suallar cavablandırılmış, gələcəkdə qarşıya çıxa biləcək problemlərin operativ şəkildə həlli yolları birgə müzakirə edilmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən paytaxt və regionlarda "İnsan hüquqlarının qorunmasında təhsilin rolu", "Milli-mənəvi dəyərlər və insan hüquqları", "Hüquqlarımızı bilək və zərərli vərdişlərə yox deyək", "Azərbaycanda insan hüquqları", "İnsan hüquqları və dini etiqad azadlığı" və s. mövzularda maarifləndirmə tədbirləri keçirilmişdir.

Dövlət Təhlükəsizliyi Xidmətinin struktur bölmələrində "Demokratik və hüquqi dövlətdə insan və vətəndaşın hüquq və azadlıqlarının təminatı" mövzusunda mühazirə oxunaraq bu istiqamətdə əməkdaşlara geniş məlumatlar verilmişdir.

Dövlət Miqrasiya Xidmətinin regional miqrasiya idarələri tərəfindən "İnsan alverinə qarşı mübarizə və qanunsuz miqrasiya hallarının aradan qaldırılması", "Əməkçi miqrantların müdafiəsi və yerli cəmiyyətə inteqrasiyası", "Miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri barədə məlumatlandırmanın qanunsuz miqrasiyanın qarşısının alınmasında əhəmiyyəti", "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması" mövzularında tədbirlər təşkil olunmuşdur.



**Professor Elmira SÜLEYMANOVA, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).**

Milli Televiziya və Radio Şurası tərəfindən (MTRŞ) insan hüquqlarını təbliğ edən mövzularda proqramların yayımlanması ilə bağlı teleradio yayımçılarına müvafiq tövsiyələr verilmiş, habelə insan hüquqlarını təbliğ edən mövzularda konfrans və digər tədbirlərin təşkil olunması məqsədilə MTRŞ Aparatının əməkdaşlarının iştirakı ilə bir sıra regional televiziyalarda dəyirmi masa keçirilmişdir.

Vəkillər Kollegiyasının üzvləri insan hüquqlarının müdafiəsində yaxından iştirak etmiş, ölkəmizin istintaq və məhkəmə orqanlarında həm müqavilə, həm də dövlət büdcəsinin vəsaiti hesabına şəxslərə hüquqi yardımlar göstərmişlər.

Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvlərinə məlumat xarakterli metodik tövsiyələr, insan hüquq və azadlıqlarını təşviq edən mövzuların dərc edilməsinə dair müvafiq tapşırıqlar verilmişdir.

Aylıq çərçivəsində dövlət qurumlarının, o cümlədən yerli icra hakimiyyətlərinin insan hüquqlarına dair təşkil etdiyi tədbirlər əsasən ümummilli lider Heydər Əliyevin insan hüquqları sahəsində həyata keçirdiyi genişmiqyaslı fəaliyyətin uğurla davam etdirilməsi, bu sahədə aidiyyəti dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının rolu, uşaqların, gənclərin, qadınların, ahılların, əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin, habelə əhalinin digər sosial qruplarının hüquqlarının müdafiəsi, sağlam həyat tərzinin təbliği, ekoloji sağlamlığın qorunması, insan alveri, erkən evlilik, korrupsiya kimi neqativ hallara qarşı mübarizə və digər bu kimi mövzular əhatə olunmaqla hüquqi maarifləndirmə məqsədini daşımışdır.

Bundan əlavə Aylıq çərçivəsində insan hüquqlarına dair müxtəlif mövzularda inşa və rəsm müsabiqələri təşkil edilmişdir.

Aparılmış təhlillər göstərir ki, əhalinin hüquqi maarifləndirilməsi, onların hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi ilə yanaşı, pozulmuş hüquqların bərpası demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən təşəbbüslər, insan hüquqları sahəsində maarifləndirmə fəaliyyətinin həyata keçirilməsi məqsədilə mütərəqqi ideyaların tətbiqi Aylıq çərçivəsində praktik yanaşma ilə real icra olunur və öz təsdiqini tapır.

Buna görə də inamla qeyd edə bilərik ki, hər il ölkəmizdə belə bir Aylığın elan olunması insan hüquqlarının təmini və təbliği baxımından çox mühüm əhəmiyyət kəsb edən tədbirlərin həyata keçirilməsi ilə nəticələnir.

Azərbaycanın əldə etdiyi yeni-yeni uğurlar, həyata keçirilən genişmiqyaslı islahatlar, beynəlxalq aləmdə qazanmış olduğu nüfuz dayanıqlı inkişafa və insan hüquqlarının etibarlı təmininə xidmət edən məqsədyönlü fəaliyyətin nəticəsidir.

Hazırda həyata keçirilən islahatların əsas hədəfini insan hüquqlarının daha səmərəli təmini, əhalinin layiqli həyat səviyyəsinin qabaqcıl beynəlxalq standartlara çatdırılması istiqamətlərində nailiyyətlərin əldə olunması təşkil edir.

Müvəkkil tərəfindən Milli İnsan Hüquqları Günü münasibətilə ənənəvi olaraq hər il keçirilən, bu il isə "Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədilərinə nail olunmasında Ombudsmanların rolu" mövzusuna həsr olunan Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransında müzakirə olunacaq məsələlər, irəli sürüləcək təkliflər və qəbul ediləcək Bakı Bəyannaməsi də məhz insan hüquqlarının daha səmərəli təmininə və təşviqinə xidmət edəcəkdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili olaraq, bütün soydaşlarımızı Milli İnsan Hüquqları Günü münasibətilə təbrik edir və hər birinizi azadlığın, sülhün, inkişafın, müstəqilliyin və ədalətin bünövrəsi olan insan hüquqlarını qorumaq naminə səmərəli əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə çağırıram! ■